



# Milli Arxiv İdarəsi 105 illiyini qeyd etdi

**Milli Arxiv İdarəsində Azərbaycan arxivinin 105 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Milli Arxiv İdarəsinin və İdarənin tabeliyində fəaliyyət göstərən dövlət arxiv xidməti təşkilatlarının rəhbər və məsul əməkdaşları iştirak ediblər. Tədbir iştirakçıları öncə Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş əziz Şəhidlərimizin, o cümlədən mərhum arxivçilərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**

İdarənin rəisi Əsgər Rəsulov tədbiri açıq elan edərək giriş nitqi söyləyib. Daha sonra "Azərbaycan Arxivi - 105 il" adlı kinoxronika nümayiş etdirilib.

Əsgər Rəsulov Azərbaycan Arxivinin 105 illiyi münasibətilə məruzə ilə çıxış edərək bildirib ki, ölkəmizdə arxiv quruculuğu Azərbaycan Xalq Cümhuriyyəti dövründən, 1919-cu ildən başlayıb, lakin Cümhuriyyətin süqutundan sonra yarımçıq qalıb. Azərbaycanda sovet rejimi bərqərar olduqdan sonra Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun 6 dekabr 1920-ci il tarixli dekreti əsasında ölkəmizdə vahid dövlət arxiv fondunun yaradılması nəzərdə tutulub.

Natiq sözügedən dövrdən etibarən Azərbaycanda arxiv quruculuğunun mərhələləri haqqında ətraflı məlumat verib. Əsgər Rəsulov qeyd edib ki, Azərbaycan arxivi Ulu Öndər Heydər Əliyevin həm Azərbaycan SSR-yə, o cümlədən müstəqil Azərbaycana rəhbərliyi dövründə daim onun diqqət və qayğısı altında olub. Ulu Öndərin ilk əmək fəaliyyətinə məhz arxivdə başlaması onun bu sahəyə marağını və arxivlərin əhəmiyyətinin göstəricisi idi. Təsadüfi deyildir ki, Ümummilli Liderin 2002-ci il 2 dekabr tarixində imzaladığı "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərmanın ölkəmizdə dövlət arxiv xidmətinin statusu və strukturunun müstəqil Azərbaycan Respublikasında gedən dövlət quruculuğu işinin tələblərinə uyğunlaşdırılmasında, habelə dövlət arxiv xidməti təşkilatlarının fəaliyyətlərinin yenidən qurulmasında müstəsna əhəmiyyəti oldu. Həmin Fərmanla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında mərkəzi icra hakimiyyəti orqanı hüquqi statusunda Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradıldı.

Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə də arxivlərə dövlət qayğısı davam edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 12 fevral tarixli 1815 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üzrə Dövlət Proqramı" arxiv işinin müasirləşdirilməsində böyük təkan rolunu oynadı.

Daha sonra məruzə ətrafında Milli Arxiv İdarəsi rəisinin müavini Həsən Həsənov, Naxçıvan MR Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov, İdarənin insan resursları və hüquqi təminat sektorunun müdiri Təranə Aslanova, Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Könül Nəsibova, Dövlət Arxivinin Quba filialının direktoru Şirin Müzəffərov, Dövlət Arxivinin Gəncə filialının direktoru Eleonora Süleymanova, İdarənin maliyyə-təsərrüfat şöbəsinin aparıcı məsləhətçisi, İdarənin Həmkarlar İttifaqı Komitəsinin sədri Aqil Məmmədov çıxış ediblər.

Milli Arxiv İdarəsi və İdarənin Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə təşkil edilmiş "2025-ci il Suverenlik və Konstitusiya ili", o cümlədən Azərbaycan arxivinin 105 illiyi çərçivəsində təşkil edilmiş məqalə müsabiqəsinin və stolüstü oyunların qaliblərı mükafatlandırılıb.

Sonda Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov İdarənin tabeliyində fəaliyyət göstərən dövlət arxiv xidməti təşkilatlarında, o cümlədən digər qurumların arxivlərində çalışan respublikamızın bütün arxivçilərini Azərbaycan arxivinin 105 illiyi münasibətilə təbrik edib, onlara şərəfli və məsuliyyətli peşələrində uğurlar arzulayıb.